# Xocalı - unudulmayan qan yaddaşımız






Xocalı soyqırımının 24-cü ildönümü ilə əlaqədar Nizami Rayon İcra Hakimiyyətinin və Yeni Azərbaycan Partiyası (YAP) Nizami rayon təşkilatının birgə təşkilatçılığı, "İki sahil" qəzetinin və "Bakcell" şirkətinin dəstəyi ilə "Xocalı - unudulmayan qan yaddaşımız" mövzusunda tədbir keçirilib.

Tədbir iştirakçıları öncə eyniadlı mövzuda təşkil olunmuş rəsm sərgisi ilə tanış olublar.

Sonra işini akt zalında davam etdirən tədbirdə çıxış edən YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva Xocalı soyqırımının insanlığa qarşı törədilmiş ən dəhşətli cinayət olduğunu bildirib.

Nizami rayon İcra Hakimiyyəti başçısının müavini Gülnaz İsrafilova qeyd edib ki, bəşər tarixinin ən qanlı cinayətlərindən olan Xocalı faciəsindən 24 il keçir: "1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində baş verənlər Azərbaycan xalqının yaddaşından heç zaman silinməyəcək. Həmin gün insan qanına susamış erməni cəlladları bütün dünyanın gözü qarşısında Azərbaycanın bu qədim şəhərində soyqırımı törədib, heç bir günahı olmayan yüzlərlə dinc insanı qətlə yetiriblər".

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, Əməkdar jurnalist Vüqar Rəhimzadə diqqətə çatdırıb ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Rusiyanın Xankəndidə yerləşən 366-cı motoatıcı alayın zirehli texnikası və hərbi heyətinin köməyi ilə Xocalı şəhərini işğal edib, yüzlərlə insan qətlə yetirilib, əlil olub, minlərlə Xocalı sakini əsir götürülüb. Soyqırımına cavabdeh olan mayor Seyran Ohanyan general rütbəsinə qədər yüksəlmiş və hazırda Ermənistanın müdafiə naziridir. Rəsmi Yerevan indiyə kimi Xocalıda baş vermiş hadisələri sadəcə hərbi əməliyyat kimi qiymətləndirir və məsuliyyəti öz üzərinə götürmək istəmir.

Çıxış edən Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, partiyanın Gənclər Birliyi sədrinin müavini Samirə Quliyeva və "Bakcell" şirkətinin məsul əməkdaşı Vəfa Abdullayeva soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması və Xocalı faciəsinə hüquqi-siyasi qiymət verilməsi istiqamətində ümummilli lider Heydər Əliyevin tarixi xidmətlərini yüksək qiymətləndirib, hazırda bu istiqamətdə ölkə rəhbərliyi tərəfindən məqsədyönlü tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıblar.

Çıxışların ardınca "Xocalı - unudulmayan qan yaddaşımız" mövzusunda keçirilmiş inşa və rəsm müsabiqələrinin qalibləri mükafatlandırılıb. Müsabiqənin yekunları haqqında məlumat verən YAP Nizami rayon təşkilatının Aparat rəhbəri Ramil Vəlibəyov bildirib ki, fevral ayının 15-də yekunlaşan müsabiqəyə iki dildə, ümumilikdə 20-dən artıq məktəbdən 32 inşa və 30 rəsm əsəri daxil olmuşdur. Yaradılmış komissiya tərəfindən keçirilmiş qiymətləndirmə zamanı müsabiqənin qalibləri müəyyənləşdirilmişdir.

Sonra qaliblərə diplomlar və hədiyyələr təqdim edilib.

Daha sonra genişmiqyaslı fəaliyyətinə görə YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyevaya "Azərbaycan Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri" İctimai Birliyinin yaradılmasının 15 illiyi münasibətilə təsis edilmiş "Fədai" medalı təqdim edilmişdir.

Çıxış edən "Azərbaycan Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri" İctimai Birliyinin Nizami rayon şöbəsinin sədri Məhi Mehdiyev müharibə veteranlarının, əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həlli və hər cür qayğı ilə əhatə olunması Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas istiqamətlərindən biridir.

Tədbirin sonunda, həmçinin Qarabağ həqiqətlərindən bəhs edən "Həqiqət" romanının təqdimatı olub.

Kitabın müəllifi Ramiz Dəniz çıxış edərək deyib ki, əsərdə əsas məqsəd tarixi həqiqəti ortaya qoymaqdır. Qarabağ hadisələrinin bir hissəsi olan Qaradağlı kənd sakinlərinin blokada şəraitindəki həyatı, çətinliklərə sinə gərməsi, bütün müasir silahlarla silahlanan daşnaklara müqavimət göstərməsi və kəndin işğalı əks olunur.

Sonra müəllif imzalı kitablarını qonaqlara təqdim edib.

Sonda xatirə şəkli çəkdirilib.

**Şəfiqə Dadaşova,**
***"İki sahil"***